


Sabir RÜSTƏMOĞLU

# İŞIQ SAÇAN DUYĞULAR

XX yüzilliyin 80-ci illərində xəmiri dərddən yoğrulan Dayandur Sevgin poeziyası yeni köklər üzərində pərvazlanaraq boy atmağa başladı. Şairin yeni çapdan çıxan “İkinci addım” kitabı da (Azərbaycan Dövlət Nəşriyyatı, Bakı – 2018) bunun nəticəsi kimi göz önündə canlanır. Kitabda ilk yer alan filologiya elmləri doktoru Sona xanım Vəliyevanın “Ön söz yerinə oxucu sözü və ya dərddən şeir işığına doğru yol başlayan sevginin nağılı…”, ikincisi isə yazıçı-publisist Əsəd Cahangirin “Dayandur Sevginin “İkinci addım”ı” başlıqlı yazılarıdır. Hər iki müəllif Dayandur Sevginin poeziyası barədə olduqca maraqlı fikirlər səsləndirmişlər. Bu da onların şairin poeziyasına məhəbbət hissinin göstəricisidir.

Kitabdakı ilk şeir “Azərbaycan bayrağı”dır. Şair Azərbaycanın üçrəngli bayrağının əzəmətindən, vüqarla dalğalanmasından, xalqa mayak kimi yol göstərməsindən böyük məhəbbətlə söz açır. Şəhid anasına müraciət edərək söyləyir ki, sənin Vətən yolunda şəhid olmuş övladın tək sənin yox, xalqının övladıdır. O, Vətən yolunda şəhid olub, sən qəddini dik tut. Bu dalğalanan bayraq onu hər zaman zirvədə saxlayacaq. Bayrağımız islamçılığımızın, türkçülüyümüzün və müstəqilliyimizin göstəricisidir. Atanın zirvəyə sancdığı bayrağı oğulları qorumalı və onun dalğalanmasına şərait yaratmalıdır. Təki hər şey ədalətlə yazıla, mələklər “ay” və “ulduz”a baş əyə, igidlərimiz sevdiyi qızlara çiyinlərində gəzdirdikləri üçrəngli bayraqla özlərini göstərə. Millətimiz haqq yolundan dönməz. “Bir kərə yüksələn bayraq bir daha enməz” sözləri əbədidir və bayrağımız heç vaxt enməz. Qoy bayrağımız dalğalanaraq arzumuzu sabaha çatdırsın. Qaranlıq gecədən işıqlı sabahlara çıxaq, səhər mehi bayrağı oxşayaraq dalğalandırsın. Vətən yolunda ya “şəhid”, ya da “qazi” olmalıyıq. Qurban verməsək, bayrağı qoruya bilmərik:

Gözəldi qarlı qışı, yaşıl yazı Vətənin,
Qəriblikdə bilinər dadı-duzu Vətənin,
Uğrunda şəhid olaq, ya da qazi Vətənin,
Yolunda verək qurban, qorusun can bayrağı!
Üçrəngli göy qurşağı, Azərbaycan bayrağı!

Dayandur “Allaha sual” şeirində sanki Yaradana üsyan edərək deyir:

– Ölüm çox yaxındadır və günahlarımı yuya bilmirəm. Bəndə qorxusu canımdan çıxmır. Allah, sənin qorxunu hiss etmirəm, bilmirəm, insandan

qorxum, yoxsa səndən? Ədalət olmayan yerdə mərdi kəməndə salmaq asandır. Bəndə Allahın kölgəsi olsa da, Allahdan qorxuludur. Allah, bilmirəm mən səndən qorxum, yoxsa insandan? Tamah daşı doğrayır. Dünya bəndənin gözündə zər olsa da, kişi əllidə baş kəsir və qan tökür. Yetmiş yaşında peyğəmbərlik edir. Ona görə də, Allah, bilmirəm səndən qorxum, yoxsa bəndədən? Qəlbimdə quru odun qalıb. Bəndənin qorxusu mənə dağ kimi gəlir. Edam otağından çıxan cəlladın əlləri qan, üzü isə ağdır. Ona görə də Allah, bilmirəm səndən, yoxsa bəndədən qorxum. Qulağın atılan top səsini eşitmirsə, xəyalım göylərdə gəzirsə, sənin hikmətin ilə açılan qapı bəndə əli ilə örtülürsə, bilmirəm, Allah, səndən, yoxsa bəndədən qorxum? Allah və insan qorxusu "yüz qara qorxular"dan bir ağ yeri qaraldır. Şeytan cildində olan insanın qorxusu, Allah qorxusundan önə keçib. Dar ağacı yolunu gözləyir və külək əsdikcə kəndir tərpənir. Ey Allah, sən harayıma gəlincə bəndən başımı bədənimdən qopardır…

İlahi, bəndəni qorxuz, ondan xilas ola bilim. Mənə "əbədi yuxu göndər". Bəlkə, o yuxu məni şadlığa qovuşdura. Sənin verdiyin yuxu "yad qorxuları" canımdan çıxarar. İlahi, mən həmin zaman sənin varlığını hiss edəcəyəm:

İlahi, nə olar, bir qorxu göndər,
Bəndə qorxusundan mən azad olum.
Ya da ki, əbədi bir yuxu göndər,
Sənin o yuxunla, bəlkə, şad olum.
Bu yad qorxuları çıxar canımdan,
Sənin varlığını duyum, İlahi!
Sənin varlığını duyum, İlahi!

"Sərhədçi əsgər" şeirində Vətən keşiyini çəkən igid əsgərlərimizin sərhədlərimizi necə qorumasından, sayıqlığından, onların sayəsində bizim sərbəst yaşamağımızdan danışılır.

Sərhəddə dayanan əsgər üçün istinin, soyuğun, boranın və qarın əhəmiyyəti yoxdur. O, hər an vətənin sərhədlərini mərdliklə qoruyur.

Sərhədçi bilir ki, Vətən sərhəddən başlanır. O, daim xeyirə yol açır və şər ondan keçə bilməz. Sərhədçinin "gözündə sevgi", "könlündə Vətən" var. Hər an sərhədçi vətənin keşiyini sayıqlıqla çəkməlidir. Sərhəddə durduğu zaman sevgilisi yadına düşsə də, gözü yol çəksə də, tikanlı məftil kimi kirpiklərini vətənin sərhədinə çəkərək, onu qorumalıdır:

Yoxdur bu dünyada sənə tay, Vətən,
Borcumu ödəyəm əməllərimlə.
Sən mənim gözümsən – deyir, ay Vətən,
Səni qoruyaram kirpiklərimlə.

"Sərhədçi qardaşım" şeiri Vətən sərhədini qoruyan cəsur əsgərlərimizin dəyanətindən, vüqarından, əzmkarlığından danışır. O, sərhəddə əsən mehə də nəzarət edir, adi daşın da keşiyini çəkir. Doğru yazıblar ki, sərhəddə keşik çəkən əsgər "ana kimi"dir.

Keşik çəkən qardaşım mənə toxtaqlıq verir. O, mənim arxam və ümid yerimdir:

Sərhədçi qardaşım – toxtaqlıq yerim,
Arxam-dayağımdı, dərk yerimdir o.
Yurdun yenilməzlik bayrağı kimi,
İrəli verdiyim ərk yerimdi o.

Şəhid polkovnik Sənan Axundovun xatirəsinə həsr edilmiş "Salam, şəhidliyə ucalan igid" şeirində müəllif şəhidin əbədi, sönməyən ömür yoluna işıq salır.

Şəhidliyə ucalan oğlan, şəhid adın mübarək! Nə qədər nəfəsim var, sənə qurban deyirəm:

Salam, şəhidliyə ucalan igid,
Mübarək adına, sanına qurban.
Nə ki həyatım var, nəfəsim gəlir,
Mən qurban deyirəm, şanına qurban.

"Zəhra" şeirində Dayandur nənəsi ilə birgə bir gündə düşmən gülləsinə tuş gələn balaca Zəhraya ağı deyir. Mən sənə necə ağı deyim, "adı dilimdə Zəhra". Nənən yanında olduğu üçün ölümdən qorxmadın. Düşmən nağıldan çıxdı, yaz ömrün qışa döndü. Zəhra nağılda olduğu kimi, alma gözlədiyi halda, gülləyə "tuş" gəldi. Nağılın şirin vaxtı bəxtinə nə düşdü, bilmədi.

Artıq Zəhra Tanrı dərgahındadır və dünyaya baxmır. Nənəsi yanında olduğu üçün Zəhra darıxmır.

Tanrı dərgahındadı,
Bu dünyaya baxmaz Zəhra.
Nənəsi yanındadı,
Yəqin, darıxmaz Zəhra.

İnsan həyatının ilk yolunu göstərən "İkinci addım" şeirində müəllif insanlara ilk addım atarkən səhv etməməyi tövsiyə edir.

Fələk kimi əyibsə, onun bəxti yoxdur. Onun sifətində əsrlərin ağrısı görünür. Kim birinci addımda səhv etsə, onun "ikinci addıma ehtiyacı" olduğu duyulur.

İlk addım hədəfə tuşlanan "ilk oxa bənzəyir". Birinci addımda büdrəmək və yıxılmaq mümkündür.

Addım uzaq səfər kimidir. Onun "sevinci ayaq səsidir". Atılan ilk addım döyüşə hazırlaşmağa oxşayır.

Könlümüzü külə çevirdilər. "İkinci addım"ın adı bilinmədi. "Birinci addım" da Mikayıl Müşfiqi və Əhməd Cavadı güllələdilər.

Ayaq və diz ağrısın, ancaq ürək ağrımasın. Birinci addımı elə atmaq lazımdır ki, ikinci addıma ehtiyac qalmasın.

Ayaq da ağrısın, diz də, tutaq ki,
Heç zaman ağrıyan ürək olmasın.
Birinci addımı elə ataq ki,
İkinci addıma gərək qalmasın.

"Əsəd Cahangirin ad gününə" şeiri də maraqlıdır.

Gecə və gündüz dinclik bilmədən həyatın əbədi döyüşdə keçdi. Məhəbbətin "söz" olduğuna görə "səs"in də aləmə yayıldı. Bu, sənin mükafatındır.

Söz qılıncında yeni söz göründü. Köhnə fikirləri dağıtdın, keçmişlərdən qoparaq "Yeni əsrin ibtidası"nı yazdın.

Böyük ustadlara ehtiram göstərdin. Platondan Anara qədər yazdın. Cavanlar sənə ustad deyir. Sənin əziyyətin hədər getməyib:

Hər sözün altında bir hikmət yatır,
Varmı bilmədiyin bir məna, bir sirr?

"Gəncə" şeirində şair Gəncənin təbii gözəlliyindən, tarixinin qədimliyindən, füsunkarlığından poetik bir dillə danışır. Yurdumun bütün guşələri gözəldir, Gəncə isə könüllər oxşayır. Nağıla bənzəyir və şirin arzular buradan başlayır. Kəpəz qapısı igidlər kimi şəfəq saçır. Göygöldə narın meh əsir. Qoşa qolların vətəni qucur. Bunlar Bakı və Gəncədir. Heç vaxt sinəndə ah olmasın. Xeyirli sabahlar üzünə açılsın. Ey Allah, Gəncənin taleyini nə "kəmağıl qoca"ya, nə də ki "dəli gənc"ə tapşır:

Sinəndən qopmasın heç vaxt aman, ah,
Üstünə açılsın xeyirli sabah,
Gəncənin taleyin tapşırma, Allah,
Kəmağıl qocaya, nə dəli gəncə.

"Ömürdü" şeirinə nəzər salaq:

Göyün bütün qatını gəz, deyir şair. Həyatın qədrini bil. Vaxt ömürdən gedir. Ən yaxşısını seç, al. Xəyalın göyləri dolaşsın.Verilən sualın hamısı ömrü soruşur:

Seç qızılı, al alın,
Ərşi gəzsin xəyalın,
Hər verilən sualın
Soracağı ömürdü.

Sevimli şairimiz Məmməd İsmayıldan gətirilən: "Yadından çıxmışam ana vətənin, Gərək barmağına sap bağlayaydım" epiqrafı ilə başlayan "Düşür" şeiri maraqlı cəhəti ilə diqqəti özünə çəkir.

Vətənin bütün acısını biz çəkirik. Acı çəkməyənlərə isə "sədəf", "dürr" qismət olur. Onun bir damlası da bizə qıyılmır. Bəzilərinə Araz ,bəzilərinə isə Kür qismət olur. Mən yarandığım günə nə deyim ki, taleyim qəm üstündə qurulub. Taleyim uğursuz şeirə bənzəyir. Onda ya "duyğu", ya da "fikir" çatmır. Bu "qanlı fələyə" söz tapa bilmirəm, o bütün kələklərə yol açır. Dovşana tələ qurulur və həmin tələyə bəzən şir düşür.

Çoxdan sənə yalvarıram və sənə candan bağlıyam. Əzab verdiyin insandan sənə ancaq "zikr düşür". Haqdan ədalət istədim və o hər şeyi var edir. Taleyimdən narazı olsam da, Allaha həmişə şükür edirəm.

Daş-qayanın dilin bilsəm də, dərd-bəladan uzaq olmadım:

Dilini bilsəm də qayanın, daşın,
Heç vaxt ayrılmadı bəladan başım,
Kiminə ev gəlir, kiminə maşın,
Dayandur Sevginə təşəkkür düşür.

"Dərənin dərdi" şeirində müəllif çiynində dağ gəzdirən dərənin əzablarını dilə gətirir. Dağlar "Yanıq Kərəm"ə, dərələr isə "Lələ"yə bənzəyir. Onlar "Kərəm"in arxasında öz köçlərini çəkirlər. Dərələr özünü şəhid edir ki, dağları göylərə qaldırsın.

Dağlar dərədən güc alıb göyə qalxır və bulud köçünə qoşulur. Dərələr öz daşını, qumunu dağa verir, ondan heç nə istəmir.

Dağlar dərənin köksündə qalxır. Yolları və bütün bənd-bərəni kəsir. Başı göydə şimşəklərə qarışır və ayağının altında olan dərələri unudur...

Dərə dağlardan həmişə bəla görür. Dağların sel-suyu dərəni basır. Canının odunu dağa verir dərə və özü günə həsrət qalır.

Dərənin zəhməti olmasa idi, dağlar buludlardan soraq verə bilməzdi. Dağ bilməlidir ki, dərə olmasa, o da olmazdı.

Dərənin canını dağlar uzun illərdir alır.Ancaq ürəyi bundan doymur. Dərə torpağını istəsə, dağ bir təpəcik kimi qalar.

Dərddən qulağı kar olub dərənin. Zirvədə olan tufanı eşitmir. Dərələr olmasa idi, dağlar “xəyal” olardı.

Dərələr istəyir ki, dağların altından çıxsın, səsini eşidib kömək edən yoxdur. Dərələrin çıxmaq üçün taqəti qalmayıb. Dağın isə nə insafı, nə ədaləti var.

Dərdli dərə, bu dərdə döz. Bir gün gələr, dərdlər açılar. Qardaş, sənin çiynindəki dağ bilinsə də, mənim çiynimdə olan dağ görünmür.

Dərə, dərdli dərə, döz, dözək hələ,
Bir gün dərdlərimiz sökülər daş-daş .
Sənin çiynindəki bir dağdı elə,
Mənim çiynimdəki görünmür, qardaş.

...“Həsrət ” şeirində Xalq şairi Söhrab Tahiri görürük.

Əvvəldən həsrət bizə yoldaşdır və bizdən əl çəkmir. Günləri həsrətin bir daşa dönsəydi, bizim tərəfdə də Savalan olardı.

Sənin misraların Araza körpü olsa da, ancaq üstündən gəlib-gedən yoxdur.

Vaxtı sayırıq. Gözləməkdən çay da yorulub. Sənin iki ürəyin var, biri o tayda, biri bu tayda.

O taydan bir boyu bəstə ağlayaraq bu taya baxır. Əlini gözü üstə qoyaraq sən gələn yollara baxır. Həsrətin yolları daş-kəsəkdir. Ana qocalıb, yaddaşı itib. Bir qız gəlin köçür. Qardaşı yoxdur ki, belini bağlasın. Əli çatmır ki, əlindən tutsun. Həsrətin yolu çox uzunmuş. Ata ölüm yatağında can verir. Oğlu onun vəsiyyətinə çata bilmir. Saçın yan darayıb. Həsrətin önündə diz çökmür. Bir qız yol gözləməkdən qocalır, ilk məhəbbətini unuda bilmir.

Köləlik yükü çiynindədir. Təbriz kədərdə boğulur. Xarabalığı sevən bayquş kimi həsrət Xudafərində yuva qurub.

Allah, həsrətin yolu çox uzunmuş:



Baxıram həsrətlə, gözlərim dolub,
Qopur ürəyimdən min aman, min ah.
Xan Araz arada göz dağı olub,
Yolu nə uzunmuş həsrətin, Allah!
Yolu nə uzunmuş həsrətin, Allah!

"Xəbər göndər" şeirində Vətən dərdinin Dayandurun yarası olduğunun şahidi oluruq. Düşmən tapdağı altında olan Vətən harayı şairi daxilən silkələyir və sarsıdır. O, dərdini kimə deyəcəyini bilmir.

Vətən daşı nə göyərir, nə də bitir. Ay Aşıq, bu daş artıq qaralıb. Sazımız da, sözümüz də düşmən əlindədir. Bütün gədikləri, aşıq, qar alıb.

Dayandurun dərdi çoxdur, onu çəkmək çətindir:

Dayandurun dərdi birmi, o çəkə?
Millətimə vurulubdur yüz ləkə,
Xəbər göndər Cavanşirə, Babəkə,
Yurdumuzu sar alıbdı, ay aşıq.
Qılıncımız korşalıbdı, ay Aşıq.

"Bu torpaq" şeirində müəllif torpağın sirli bir dünya olduğunu söyləyir. Tarixi və yaşı məlum deyil. Daşından, qayasından bulaq çıxır. İlana da döşündən zəhər verir. Bu torpaq şəkər və zəhərdir.



Bu torpaqda arzulara çat, yaralara məlhəm ol. Tənbəllər üçün yaşayış yeri, zəhmətkeşlər üçün isə bu torpaq bərəkətdir.

Ağır gündə köməyinə çatır, sinəsində gül-çiçək bitir. Mərdlərə görə yurd yeri və vətəndir. Namərdlər üçün lazımsızdır bu torpaq. Vətəni sevməyənlər ona qılınc çaldı. Bu Vətən "duyğusuzdan" nə "incidi", nə də "küsdü". İnsan oğlu onun üstündə gəzdi. Bundan sonra torpaq çox şey gördü:

Əvvəl adi insan üçün yer oldu,
Özü boyda sehr oldu, sirr oldu,
Alın tərim səpələndi, dürr oldu,
Nəyi varsa, mənə verdi bu torpaq.

"Yetim uşaqlar" şeir... Yetimlik həyatın ən ağrılı və acılı "payı"dı. Onların həyatı hər an sıxıntı içərisində keçir. Dayandur da yetim uşaqların acı taleyinə təəssüflənir. Yetim uşaqlar qüssə içərisində "yumaq" kimi yaşayır. "Yetimlik" uşağın başına dəyən qapaz kimidir. Onu "gözüqıpıq" və "dili dolaşıq" edir. O, xəyal quraraq özünə səadət axtarar. Nə qədər çalışsa da, kədər qəlbindən çıxmaz. Ürəyi kövrək, gözü yaşlı olar. Nə qədər fikir çəksə də, borcu ödənməz.

Onun baharı boranlı qışa bənzəyir. Dünya gözlərində sual kimidir. Uşaq vaxtından evdə yuxarı başa keçər və atasız olduğu üçün ağsaqqallıq edər.

Sınıq qəlbində sevgisi kövrələr. Elçi göndərməyə adam tapa bilməz. Yetim olduğuna görə toy günü yağış və qar yağar.

Qəmli illəri beləcə keçər. Uşaqlıqdan çıxar. Bir kasıb toy edər, bəy tərifi zamanı aşıq xələt istəyəndə xələti atası əvəzinə özü verər. Qəlbində qəm-kədər yuva salar. Aşığın sözündən inciyər.

Yetim uşaqlar beləcə böyüyər və yaşa dolarlar. Çox çətinliklə kişi olarlar. Allah heç kəsi yetim etməsin. Xəyalları uzaqlarda gəzər. Fikirləşər ki, bir də ölüm-itim olmasın. Özüm yetim oldum, barı balalarım yetim olmasın.

Gəzər uzaqlarda fikir-xəyalı,
Dilər, bir də ölüm-itim olmasın.
Özüm yetim qaldım erkən dünyada,
Barı balalarım yetim qalmasın.

...Taleyində baş verən olaylara müəllif "Mən" şeirində öz münasibətini bildirir. Tale məni sınağa

çəkdi. Ürəyimə daş bağlayıb dözdüm. Zalım fələk, mənə nə qədər əzab versən də, mən bu dünyadan bezəsi deyiləm. Öz tüstümə kor olmuşam. Soyuq və istiyə fikir verməmişəm. Üstümə dərd gəlsə də, misra-misra şeirə dönmüşəm.

Haqsızlığa həmişə yağı kimi qılınc çalmışam. Haqq körpüsünün tağıyam. Kərəmin nakam eşqinə ağlayıram və "Dilqəmi"də saz kimi sızıldayıram. Bir namərdə mərd əyilirsə, dünyada bu mənə dərd olur. Şər əlində aciz qalıb gözü dörd olan və kirpiyindən qan-yaş daman gözə bənzəyirəm.

Haqq yolunda, ay Dayandur, yaman çox,
Keçmiş keçdi, gələcəyə güman yox.
Ulu Tanrı, səndən mənə aman yox,
Öz baxtımı gərək özüm yazam mən.

Aşıq və el şairi, dostu Zərgər Abbasa ünvanladığı "Ay Abbas" şeirində müəllif Abbasa dərin məhəbbətini ifadə edir: Sənin misralarından "çiçək" və "gül" ətri gəlir. Ona görə də onları dərmək istəyirəm. Ürəyimdə sənin xüsusi yerin var. Mən ürəyimi, Abbas, sənə verirəm.

Əvvəldən çətinliyə qarşı durdun. Ona görə də el-oba içində şöhrətləndin. Sənin sözünün hikmətinə aşiq oldum. Dünyaya yüzlərlə aşıq gəlib gedib ki, onlar da verdiyi sözə sədaqətli olmuşlar. Biz də şeir və sənətə bağlıyıq. Abbas, mən Məcnun, sən də Kərəm kimisən. Dünyanın görkəmi dəyişib. Ölkəmi qara bulud tutub. Yağı düşmən ölkəmə qılınc çalır. Ona görə də, Abbas, gözümdən "qan tökərəm":

Dayandurun səhvi varsa, bağışla,
Sil qəlbimi təmiz qarla, yağışla,
Qızıl kimi çək qəlibə, naxışla,
Sən zərgərsən, mən də zərəm, ay Abbas.

Tanrıya üz tutaraq ədalətsizlikdən gileylənir şair, uzaq və yaxın adamlarına deyir ki, könlümdə "odum" var. Var-dövlət olan yerdə məni axtarmaq lazım deyil, ona görə ki, varım yoxdur. Deməyə və yazmağa da bir şeyim yoxdu, ürək göynərtisindən başqa.

Nəyi deyim, yazım nəyi,
Gedə köksümün göynəyi,
Haqq deyilənin gəlməyi
Qaldı hansı vaxta,Tanrım?

Deyirlər ki, Yaradan hər şeyi yoxdan var edir... Nə qədər çalışdımsa, haqqdan səs gəlmədi, – deyir şair. Sevincim çoxdan ölüb. İçimdə də dərd ölür. Yalan sözlərdən Sevgin yorulub:

Sevgin, boş vədlərdən gəlmişəm təngə,
Haqsızlar haqq ilə çıxıbdır cəngə.
Tülkü nərə çəkib dönüb pələngə,
Çaqqalın əlində qurd ölüb gedir.

Kitabın ikinci bölümü "Sevgi dünyası" adlanır. Bu şeirlərində Dayandur ürəyində qövr edən sevgi hisslərini, iztirablı və sevincli anlarını təbii boyalarla göstərir.

"Yadından çıxıb" şeirində İlahiyə müraciət edən müəllifin ürək sıxıntılarında bir az da təbəssüm görünür:

Sən bizi sevgidən yaratdın axı,
Ən ülvi sevgilər adından çıxıb.
Tanrım,bu gözələ hər şey vermisən,
Bircə ürək vermək yadından çıxıb.

Səhər tezdən şehli bənövşəni dər, çəmənlikdə ayaqyalın gəz deyə, şair bir gözələ xeyirli sabahlar arzulayır:

Tanrı ola yar gözələ,
Bu nazənin PİR gözələ,
Sevgin, belə bir gözələ
Yaz, sabahın xeyir olsun.

Dayandur Sevginin diqqəti çəkən şeirlərindən biri də "Məni sevəcəksən öləndən sonra"dır.

Şeir daşıdığı məna yükünə görə maraqlı bir məsələ üzərində qurulub. Aşiq sevir, ancaq sevdiyi gözəl onu sevmir. Aşiq güman edir ki, o öləndən sonra sevdiyi gözəl onu sevəcək. Bu deyim və yozum aşiqin gəldiyi kədərli nəticədir.

Yaşa dolacaqsan və sirri qəlbində yaşadacaqsan.Sənə məzar daşım həmdəm olacaq və həmin məzar önündə diz çöküb ağlayacaqsan.Məni öləndən sonra sevəcəksən...

Hələ ki, ömr elə sən gülə-gülə,
Hələ yetişməyib sənə bəd xəbər.
Əzizim, taleyim yazılıb belə,
Mən diri bədbəxtəm, ölü bəxtəvər,
Məni sevəcəksən öləndən sonra.

"Qayıdacaqsan" şeiri də bu qəbildəndir. Qara fikirləri "yaşıla boyansa" geri dönəcək o gözəl...

Coşqun dağ çayıtək çağlaya bilsən,
Səsinlə dünyanı dağlaya bilsən,
Ürəkdən ah çəkib ağlaya bilsən,
Gözündə su yansa, qayıdacaqsan.

"Gözəl" şeirində şair bir gözəlin obrazını yaradıb. Səni necə vəsf etsəm də, sözlərim bu gözəlliyə dəyməz. Səni sanki böyük bir nəqqaş yaradıb:

Ayrılıq Sevginin qəddini əyib,
O al dodaqların gilastək dəyib,
Üstündə ilahi elə işləyib,
Çətindi vəsf etsin söz səni, gözəl.

Dayandur Sevginin kitaba daxil edilmiş şeirlərində kədərli məhəbbət notları üstünlük təşkil edir. Bu cəhətdən şairin "Yar andı" və "Gəl indi" təcnisləri də maraq doğurur. Hər iki təcnisdə məhəbbətin iztirabları müxtəlif boyalarla təsvir edilib:

Ürəyimə yazılıbdı yar adı,
Sevən qəlbim həsrətindən yaradı,
Çəkdiklərim, Allah, nəyə yaradı?
Göz yaşımdan ala göllər yarandı.

Yaxud:

Həmsöhbətin arifdirsə, kəlmə, din,
Ürəklərdə yuva qurmaz gəlmə din,
Zalım qızı, sağ vaxtıma gəlmədin,
Cənazəmi qaldırmağa gəl indi.

"Qəm" şeirində də nisgilli bir ürəyin çırpıntıları dilə gəlir. Qəmlə yoğrulmuş ürək kükrəyərək sanki nalə çəkir.

Məhəbbətim üzümə gülmədi. Dünyadan baş götürüb qaçsam da, qəm məndən əl çəkmir.

Savalan dağının qarına baxıram.Yarın yara qovuşmasına Araz çayı imkan verməz. Ürəyimin tarına barmaq vursan, hər an mənə tərəf qəm gələcək:

Bədəni buz, gözləri qan, daş ürək,
Açılmadı sinən üstə bir çiçək,
Heç qovuşma vüsalına mənimtək,
Görüm səni bu dünyada qarı, qəm.

Kitabın sonunda verilən "Ruhların söhbəti" essesi keçmiş anların bu günlə səsləşən cəhətlərini özündə ehtiva edir. Hazırkı dövrdə torpaqlarımızın xeyli hissəsi erməni cəlladlarının işğalı altındadır. Dialoq şəklində yazılan bu esse də Mirzə Cəlil və erməni Aşot arasında gedir.

Mirzə Cəlilin "Kamança"əsərində xilas etdiyi Aşotdan və onun əməllərindən söz açılır. Mirzə Cəlillə Aşotun ruhlarının dialoqu maraq doğuran bir mükaliməyə bənzəyir. Müəllif ermənilərin iyrənc və murdar xislətini Aşotun ruhu vasitəsilə dilləndirir. Aşot Mirzə Cəlilin "Ölülər"əsərindəki Şeyx Nəsrullah, Şeyx Əhməd və Kefli İsgəndərdən danışır. Belə söyləyir ki, Şeyx Əhmədin anası ermənidir. Şeyx Nəsrullah və Şeyx Əhməd Ermənistana gedəndən sonra əsas rəhbər Şeyx Əhməd olur. Essenin sonunda Mirzə Cəlillə Mirzə Ələkbər Sabirin söhbəti (ruhlarının söhbəti) verilir. Doğma vətənini miskin görən Sabir yaxşı ki, ruha çevrilib...

Dayandur Sevginin kitaba daxil olunmuş şeirlərinin əsas mövzusunu Vətən, yaralı Qarabağ, təbiət, Vətən övladları, Allaha məhəbbət və sair məsələlər təşkil edir. O, ürəyinə yatan mövzuları özünəməxsus təsirli bədii dillə, yeni boyalar və obrazlı ifadələrlə əks etdirir, dərin ümumiləşdirmələr aparır və bununla bahəm, xoş lirizmi onun yaradıcılığının ən yaxşı keyfiyyəti kimi nəzərə çarpır. Hansı mövzuya müraciət etməsindən asılı olmayaraq şair onu daxili istəkdən yaradır. Dayandurun şeirləri onun ürəyinin bir qədər ılıq-isti döyüntülərinə bənzəyir. Belə hərarətli, isti nəfəsi onun poeziyasının qanına və canına hoparaq zirvədən başlayan bulaq suyu kimi yavaş-yavaş öz cığırı ilə süzülüb gedir: aram-aram, asta-asta, zümzümə edərək...

Dayandur Sevginin təbii həyat lövhələrini xatırladan şeirləri dilinin aydınlığı, yığcamlığı, sadəliyi, ahəngdarlığı ilə oxucunu özünə daha yaxından bağlayır. Belə bir qənaətə gəlmək olur ki, şairin mövzu seçimi zamanın tələbindən doğur. O, mövzunu axtarmır, mövzu özü onu tapır. Bunun nəticəsidir ki, mövzu rəngarəngliyi onun şeirlərini ağuşuna alır. Dayandur Sevgin duyğularının al şəfəqləri ürəklərə hərarət, qəlblərə işıq bəxş edir.